*layihə*

**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

**QƏRAR**

**№ ___**

**Bakı şəhəri,** **«___» ___________ 201_-ci il**

# Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunması, pasportlaşdırılması, qeydiyyatı və dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin "YUNESKO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyası üzrə səlahiyyətli orqanların təyin edilməsi barədə" 2007-ci il 12 mart tarixli 2031 nömrəli Sərəncamının 1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan xalqına məxsus və kollektiv yaradıcılığın nəticəsi olan qeyri-maddi mədəni irsin- diyarşünaslıq (xalq adət və ənənələri, milli bayram və mərasimlər, tarixi rəmz və sirlər), folklor (milli musiqi və rəqslər, şifahi xalq yaradıcılığı, xalq oyun və tamaşaları) və sənətkarlıq (xalq tətbiqi sənəti, ənənəvi dekorativ sənət, milli təsviri yaradıcılıq) nümunələrinin, qeyri-maddi mədəni irsin tərkib hissəsi olan milli mətbəx nümunələrinin, mətbəx ləvazimatlarının, qabların, ocaqların, onların adlarının, hazırlanma texnologiyalarının, milli ənənəvi qida məhsullarının, milli xörəklərin (yeməklərin) reseptlərinin, içkilərin texnologiyalarının və adlarının, ənənəvi qida və mətbəx mədəniyyəti ilə bağlı ənənələrin hüquqi qorunması, pasportlaşdırılması, qeydiyyatı və dövlət reyestrinin aparılması ilə bağlı məsələlərin tənzimlənməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunması, pasportlaşdırılması, qeydiyyatı və dövlət reyestrinin aparılması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan qeyri-maddi mədəni irs nümunəsinin inventar pasportunun nümunəsi təsdiq edilsin (Əlavə 1).

3. Azərbaycan qeyri-maddi mədəni irs nümunəsinin rəsmi qeydiyyatı haqqında şəhadətnamənin nümunəsi təsdiq edilsin (Əlavə 2).

4. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin müddəalarına uyğun olaraq ictimai varidata daxil olan ənənəvi biliklər dövlət varidatı elan olunsun.

5. Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinə və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə tapşırılsın:

5.1. dövlət varidatı elan olunmuş ənənəvi biliklərin hüquqi qorunmasını təmin etmək məqsədi ilə zəruri tədbirlərin görülməsini və Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestrinin aparılmasını təmin etsinlər.

5.2. Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin, o cümlədən milli mətbəx nümunələrinin qeyri-maddi aktivlər şəklində eyniləşdirilməsi (identifikasiyası), sistemləşdirilməsi, uçota alınması, kataloqlaşdırılması, reyestrinin aparılması, qorunub saxlanması, tədrisi, tədqiq olunması, öyrənilməsi, ölkə daxilində, eləcə də xarici ölkələrdə yayılması və təbliği ilə əlaqədar mütəmadi olaraq tədbirlər həyata keçirsinlər.

6. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə və Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinə tapşırılsın ki, milli mətbəxə aid olan obyektlər də daxil olmaqla Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin xüsusi qorunma rejiminin tətbiq olunmasını təmin etsinlər.

7. Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinə tapşırılsın ki, ənənəyə əsaslanan əqli yaradıcılıq fəaliyyətinin nəticələrinin (rəvayətlər, eposlar (dastanlar), əfsanələr, poeziya nümunələri, tapmacalar, şifahi ifadələr və digər söz yaradıcılığı (sözlər, işarələr, adlar, simvollar və s.), nəsildən-nəslə ötürülərək qorunub saxlanılan elm, ədəbiyyat və incəsənət sahəsində yeniliklərin və yaradıcılıq nəticələri olan bütün növ ənənəvi biliklərin, o cümlədən ənənəvi biliklər kimi qorunan milli mətbəx nümunələrinin (mətbəx ləvazimatlarının, qabların, ocaqların, onların adlarının, hazırlanma texnologiyalarının, milli ənənəvi qida məhsullarının, milli xörəklərin (yeməklərin) reseptlərinin, içkilərin texnologiyalarının və adlarının, ənənəvi qida və milli mətbəx mədəniyyəti ilə bağlı ənənələrin və s.) dövlət qeydiyyatına alınmasını təmin etsin.

8. Nəzərə alınsın ki, Azərbaycan Respublikasının ərazisində Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin istifadəsi sərbəstdir.

Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin xarici ölkələrdə ictimai istifadəsi Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi ilə müvafiq olaraq razılaşdırmaqla həyata keçirilir.

9. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu qərarın icrası ilə əlaqədar hər il Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə və Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinə müvafiq qaydada lazımi maliyyə vəsaitinin ayrılmasını təmin etsin.

10. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının
Baş naziri — Artur Rasi-zadə

*layihə*

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 201_-ci il
___ tarixli _____ nömrəli
qərarı ilə təsdiq edilmişdir

# Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunması, pasportlaşdırılması, qeydiyyatı və dövlət reyestrinin aparılması Qaydaları

Bu Qaydalar Azərbaycan Respublikasının "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanununun 27-ci maddəsinin 1-ci bəndinin müddəalarına, "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Qanununun 6.3-6.4-cü və "Mədəniyyət haqqında" Qanununun 12-ci və 14-cü maddələrinə uyğun olaraq hazırlanmışdır, Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin mühafizəsi və hüquqi qorunması sahəsində əlavə tədbirləri müəyyən edir.

Azərbaycan xalqına məxsus və kollektiv yaradıcılığın nəticəsi olan qeyri-maddi mədəni irsin-diyarşünaslıq (xalq adət və ənənələri, milli bayram və mərasimlər, tarixi rəmz və sirlər), folklor (milli musiqi və rəqslər, şifahi xalq yaradıcılığı, xalq oyun və tamaşaları) və sənətkarlıq (xalq tətbiqi sənəti, ənənəvi dekorativ sənət, milli təsviri yaradıcılıq) nümunələrinin, qeyri-maddi mədəni irsin tərkib hissəsi olan milli mətbəx nümunələrinin, mətbəx ləvazimatlarının, qabların, ocaqların, onların adlarının, hazırlanma texnologiyalarının, milli ənənəvi qida məhsullarının, milli xörəklərin (yeməklərin) reseptlərinin, içkilərin texnologiyalarının və adlarının, ənənəvi qida və mətbəx mədəniyyəti ilə bağlı ənənələrin hüquqi qorunması, pasportlaşdırılması, qeydiyyatı və dövlət reyestrinin aparılması bu Qaydalarda nəzərdə tutulan prosedurlara uyğun olaraq tənzimlənir.

Bu Qaydaların müddəaları ənənəvi mədəni ifadələr əsasında yaradılmış müəlliflik hüququ və əlaqəli hüquqların yeni obyektləri, həmçinin ənənəvi biliklər əsasında yaradılmış patent qabiliyyətli obyektlərlə bağlı məsələlərə şamil edilmir.

## 1. Ümumi anlayışlar

Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları bildirir:

**1. Qeyri-maddi mədəni irs –** Azərbaycan xalqına məxsus və kollektiv yaradıcılığın nəticəsi sayılan şifahi ənənələrdə və ifadə formalarında özünəməxsusluğun daşıyıcısı olan dil də daxil olmaqla ifaçılıq sənətində, adət-ənənələrdə, bayram mərasimlərində, təbiətə və kainata aid bilik və ənənələrdə, ənənəvi sənətkarlıqla əlaqədar bilik və vərdişlərdə əksini tapmış ənənələr, təqdimat, ifadə formaları və nümunələr, biliklər və vərdişlər. Milli mətbəx nümunələri, o cümlədən mətbəx ləvazimatları, qablar, ocaqlar, milli xörəklər (yeməklər) və içkilər, onların adları, hazırlanma texnologiyaları, ənənəvi qida və milli mədəniyyətlə bağlı ənənələr də qeyri-maddi mədəni irsə daxildir. Qeyri-maddi mədəni irs ənənəvi mədəni ifadələrin və ənənəvi biliklərin bütün növlərini, eləcə də milli mətbəxə aid bilikləri əhatə edir;

**2. Qeyri-maddi mədəni irsin qorunub saxlanması –** qeyri-maddi mədəni irsin aşkar edilməsi, identifikasiyası (eyniləşdirilməsi) və sənədləşdirilməsi (pasportlaşdırılması) saxlanması, tədqiq edilməsi, təbliği, həmçinin yaşama qabiliyyətinin təminatı və onların məhv olmaqdan müdafiəsinə yönəldilmiş tədbirlər;

**3. Ənənəvi mədəni ifadələr (folklor nümunələri) –** Azərbaycan xalqı, eləcə də onun ayrı-ayrı fərdləri tərəfindən yaradılan və qorunub saxlanılan, xalqın ənənəvi-bədii dəyərlərini, dünyagörüşünü, ümid və arzularını, bədii irsin xarakterik xüsusiyyətlərini özündə əks etdirən, şifahi şəkildə yaradılan söz sənəti nümunələri, xalq musiqisi, oyunları və rəqsləri, xalq sənətkarlığı və tətbiqi sənət nümunələri (maddi formada olanlar və olmayanlar) və digər xalq yaradıcılığı nümunələri (Folklor nümunələri "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu və bu Qaydalar ilə qorunur);

**4. Ənənəvi biliklər**-ənənəyə əsaslanan əqli yaradıcılıq fəaliyyətinin nəticəsi olan və nəsildən-nəslə ötürülərək qorunub saxlanılan elm, ədəbiyyat və incəsənət sahəsində yeniliklər və yaradıcılıq nəticələri, onların tətbiqi və istifadəsi.

Ənənəvi biliklərin hüquqi qorunması "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinə və bu Qaydalara uyğun olaraq tənzimlənir;

**5. Ənənəvi mədəni ifadələrin və ənənəvi biliklərin hüquqi qorunması** – ənənəvi mədəni ifadələrin və ənənəvi biliklərin əqli mülkiyyət rejimində "pozitiv" və "müdafiə"li qorunması.

**6. Ənənəvi mədəni ifadələrin və ənənəvi biliklərin "pozitiv" qorunması** – ənənəvi mədəni ifadələrə və ənənəvi biliklərə münasibətdə əqli mülkiyyət hüquqlarının həyata keçirilməsinin təmin edilməsi.

**7. Ənənəvi mədəni ifadələrin və ənənəvi biliklərin "müdafiə"li qorunması** – təqdim olunan ənənəvi mədəni ifadələrə və ənənəvi biliklərə münasibətdə əqli mülkiyyət hüquqlarının üçüncü şəxslər tərəfindən alınmayacağına təminat verən strategiyalar toplusu.

## 2. Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestrinə daxil edilməsi və inventarlaşdırılması

2.1. Azərbaycan xalqına məxsus olan qeyri-maddi mədəni irs nümunələri bu Qaydalara uyğun olaraq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi (bundan sonra -**"Nazirlik"**) tərəfindən aparılan Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestrinə daxil edilir.

2.2. Azərbaycan xalqına məxsus olan qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestrinə daxil edilməsi haqqında təkliflər müvafiq dövlət və özəl qurumlar, qeyri-hökumət təşkilatları və yaradıcılıq birlikləri, eləcə də ayrı-ayrı vətəndaşlar tərəfindən müvafiq qaydada Nazirliyə təqdim olunur.

2.3. Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestrinə daxil edilmə prosedurları siyahıyaalınma və sənədləşdirmə (pasportlaşdırma) kimi iki mütləq və fayllaşdırma kimi məqsədəuyğun mərhələdən ibarətdir.

2.4. İlkin mərhələdə dövlət reyestrinə daxil olan Azərbaycan qeyri-maddi mədəni irs nümunələri Nazirlik tərəfindən siyahıya alınır və rəsmən təsdiq edilir.

2.5. Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestrinin siyahısının təsnifatı diyarşünaslıq (xalq adət və ənənələri; milli bayram və mərasimlər; tarixi rəmz nümunələri və sirlər), folklor (milli musiqi və rəqslər; şifahi xalq yaradıcılığı; xalq oyun və tamaşaları) və sənətkarlıq (xalq tətbiqi sənəti; ənənəvi dekorativ sənət; milli təsviri yaradıcılıq) istiqamətlərini əhatə edir.

2.6. Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestrinin siyahısına daxil edilən nümunəyə onun kateqoriyası, qrupu, sinfi, növü, janrı haqqında və digər müvafiq məlumatları əks etdirən hərf-rəqəmli formada şifrələnmiş fərdi reyestr kodu verilir.

2.7. İkinci mərhələdə Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestrinə daxil edilən obyektlər Əlavə 1-də göstərilən inventar pasport əsasında Nazirlik tərəfindən rəsmən sənədləşdirilir (pasportlaşdırılır).

İnventar pasportun nümunəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

2.8. Azərbaycan qeyri-maddi mədəni irs nümunəsinin inventar pasportuna nümunənin adı, inventar kodu, kateqoriyası, qrupu, sinfi, növü, janrı, tərifi/təsviri, təsnifatı, tarixi/coğrafiyası, pasportu verən orqanın adı və möhürü, pasportun verilmə tarixi, pasportu imzalayan səlahiyyətli şəxsin vəzifəsi, soyadı, adı və imzası, digər müvafiq məlumatlar daxil edilir.

2.9. Üçüncü mərhələdə Reyestrə daxil edilən Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Nazirlik tərəfindən məlumat faylları yaradılır.

Məlumat faylına beynəlxalq təcrübəyə uyğun olaraq nümunəni geniş təsvir edən mətn, foto, video, audio və digər məlumatlar daxil edilir.

## 3. Qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunmasına aid prosedurlar

3.1. “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ənənəvi mədəni ifadələrin əqli mülkiyyətin xüsusi növü kimi qorunduğunu və “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinə əsasən ictimai varidat sayıdığını nəzərə alaraq, onlar dövlət varidatı elan edilir;

3.2. Ənənəvi mədəni ifadələr və ənənəvi biliklərin əqli mülkiyyət rejimində qorunmasını təmin etmək məqsədi ilə aşağıdakı prosedurlar həyata keçirilir:

a) əcnəbi fiziki və hüquqi şəxslərin qeyri-qanuni istifadəsinə qarşı tədbirləri təmin edən “pozitiv” qorunma, o cümlədən:

- ənənəvi mədəni ifadələr və ənənəvi biliklərin icazəsiz kommersiya məqsədi ilə istifadəsi;
- mədəni materialın təhqiredici və alçaldıcı istifadəsi;
- ənənəvi mədəni ifadələr və ənənəvi biliklərin istifadəçiləri və onların hüquq sahibləri arasında mövcud olmayan, yanlış və ya aldadıcı əlamətlərin olması;
- qanunvericiliyin tələblərinə zidd olan istifadəsi;
- materialın mənbəyinin lazımi qaydada göstərilməməsi.

b) ənənəvi mədəni ifadələri plagiatlaşdıran əsərlərin müəlliflik hüququnun mənimsənilməsinin və ənənəvi biliklərdən bilavasitə istifadə edərək ixtiraların patentləşdirilməsinin qarşısının alınması üçün əqli mülkiyyət hüquqlarının və ənənəvi biliklərin sənədləşdirilməsi (pasportlaşdırılması) əsasında “müdafiə”li qorunması.

3.3. Ənənəvi mədəni ifadələr və ənənəvi biliklərin Azərbaycan Respublikasının hüdudlarından kənarda, o cümlədən xarici istifadəçilər tərəfindən İnternetdə istifadəsinə icazə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi (bundan sonra - **“Agentlik”**) tərəfindən verilir.

3.4. Ənənəvi mədəni nümunələrin, ənənəvi biliklərin və digər qeyri-maddi mədəni irs nümunələrinin sənədləşdirilməsi (pasportlaşdırılması) onların yazılı təsvirinin Agentlikdə qeydiyyatından sonra Nazirlik tərəfindən həyata keçirilir.

**Qeyd:** Sənədləşməyə (pasportlaşdırmaya) ənənəvi mədəni nümunələrin, ənənəvi biliklərin və s. qeyri-maddi mədəni irs nümunələrinin yazılması, rəqəmli formaya salınması, reyestrlərinin, məlumat bazalarının və rəqəmli kitabxanaların yaradılması və aparılması daxildir.

## 4. Qeyri-maddi mədəni irsin qeydiyyatı və qeydiyyat haqqında şəhadətnamənin verilməsi

4.1. Azərbaycan xalqına məxsus olan qeyri-maddi mədəni irs nümunələri bu Qaydalara uyğun olaraq Azərbaycan xalqına məxsus əqli mülkiyyət obyektləri kimi Agentlikdə qeydiyyatdan keçirilir.

4.2. Qeydiyyat üçün sifarişçi qismində aşağıda göstərilənlər müraciət edə bilərlər:

- Nazirlik və onun müvafiq səlahiyyətli qurumları;
- Azərbaycan Milli Elmlər Akademiyası (və ya Akademiyanın müvafiq səlahiyyətli qurumları);
- yerli cəmiyyətlər (qruplar).

**Qeyd:** Qeyri-maddi mədəni irs nümunələrinin qeydiyyatı üçün Agentliyə təqdim edilən nümunələrin siyahısı, adları (adı), mənşəyi və ya mənsub olduğu icma barədə məlumatlar Nazirliklə razılaşdırılmalıdır.

4.3. Qeyri-maddi mədəni irs nümunəsinin qeydiyyatı üçün nümunəsi Agentlik tərəfindən təsdiq edilmiş ərizə doldurulur.

4.4. Ərizəyə aşağıdakı sənədlər və məlumatlar əlavə olunmalıdır:

- şifarişçinin hüquqi ünvanı barədə məlumat və ya olduğu ünvanı təsdiq edən sənədin surəti;
- sifarişçinin (hüquqi şəxs olduğu halda) nizamnaməsinin (əsasnaməsinin) notarial qaydada təsdiq edilmiş surəti (eyni hüquqi şəxs qeyri-maddi mədəni irsin qeydiyyatı ilə bağlı təkrar müraciət etdikdə, əgər təşkilatın adında, yaxud təşkilati-hüquqi formasında dəyişiklik edilməmişdirsə və hüquqi ünvanı dəyişməmişdirsə, bu halda onun nizamnaməsinin (əsasnaməsinin) surəti və hüquqi ünvanını təsdiq edən sənəd tələb olunmur)***;***
- qeyri-maddi mədəni irsin geniş təsviri (siyahısı);
- qeyri-maddi mədəni irs nümunəsinin mənşəyi və mənsubluğu barədə məlumat;
- qeyri-maddi mədəni irslə bağlı əvvəllər kütləvi informasiya vasitələrində material dərc edilmişdirsə, həmin materialın müəllifi və dərc edildiyi nəşr barədə məlumat (dərc edilmiş materialın kserosurəti əlavə olunmaqla).
- qeyri-maddi mədəni irs nümunəsinin dövlət reyestrində qeydiyyata alınması haqqında Nazirliyin arayışı.

4.5. Qeyri-maddi mədəni irs nümunələrinin qeydiyyatı üçün sənədlər Agentliyə Azərbaycan dilində təqdim olunmalıdır.

4.6. Qeyri-maddi mədəni irs nümunəsi sayılan ənənəvi biliklərin qeydiyyatı üçün sifariş verildikdə aşağıdakılar nəzərə alınmalıdır:

- müəyyən ənənəvi biliklərlə qarşılıqlı əlaqədə istifadə edilən genetik mənbənin təsviri (siyahısı);

- ənənəvi biliklərin istifadəsinin son nəticəsi;

- qeydiyyata təqdim olunmuş ənənəvi biliklərin hansı fəaliyyət sahəsinə aid olması barədə məlumat.

4.7. Qeyri-maddi mədəni irs nümunəsinin qeydiyyatı barədə müraciətə onun Agentliyə təqdim edildiyi tarixdən bir ay müddətində baxılır.

Agentlik təqdim edilmiş qeyri-maddi mədəni irs nümunəsinin qeydiyyatı haqqında qərar qəbul edir və bu barədə sifarişçini məlumatlandırır.

4.8. Qeyri-maddi mədəni irsin qeydiyyatı üçün təqdim edilmiş sənədlər bu Qaydaların tələblərinə uyğun gəlmədikdə, təqdim edilmiş sənədlərdə və məlumatlarda müəyyən edilmiş çatışmazlıqlar və ya yol verilmiş təhriflər sifarışçi tərəfindən aradan qaldırılmadıqda Agentlik qeydiyyatdan imtina edir və bu barədə sifarişciyə əsaslandırılmış yazılı bildiriş göndərir (təqdim edir).

4.9. Agentlik qeydiyyatdan keçirilmiş qeyri-maddi mədəni irs nümunəsi haqqında məlumatları “Qeyri-maddi mədəni irs nümunələrinin qeydiyyatı kitabı”na daxil edir və hüquq sahibinə qeyri-maddi mədəni irs nümunəsinin qeydiyyatı haqqında Əlavə 2-də göstərilmiş nümunəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Şəhadətnamə verir;

4.10. Qeydiyyatdan keçirilmiş qeyri-maddi irs nümunələrinə dair müvafiq məlumatlar hər bir səhifəsi ardıcıllıqla nömrələnmiş, qaytanlanmış və Agentliyin möhürü vurulmuş “Qeyri-maddi mədəni irs nümunəsinin qeydiyyatı kitabı”na daxil edilir və Agentliyin elektron məlumat bazasında yerləşdirilir.

______________________________________

***Layihə***

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 201_-ci il
___ tarixli _____ nömrəli
qərarı ilə təsdiq edilmişdir

Əlavə 1

# AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

## Azərbaycan qeyri-maddi mədəni irs nümunəsinin

## İNVENTAR PASPORTU

**Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestrində rəsmi qeydiyyata alınmışdır**

**Reyestr kodu ____________________**

**Nümunənin adı** ____________________

**Reyestr kodu** ____________________

**Kateqoriyası** ____________________

**Qrupu** ____________________

**Sinfi** ____________________

**Növü** ____________________

**Janrı** ____________________

**Tərifi/təsviri** ____________________

**Tərkibi/təsnifatı** ____________________

**Tarixi/arealı** ____________________

**Pasportu verən orqanın adı** Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

**Pasportun verilmə tarixi** ____________________

**Nazir**

**M.Y.**

***Layihə***

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 201_-ci il
___ tarixli _____ nömrəli
qərarı ilə təsdiq edilmişdir

Əlavə 2

# AZƏRBAYCAN RESPUBLİKASI MÜƏLLİF HÜQUQLARI AGENTLİYİ

## Azərbaycan qeyri-maddi mədəni irs nümunəsinin rəsmi qeydiyyatı haqqında

## Ş Ə H A D Ə T N A M Ə

**№ ________**

**Qeyri-maddi mədəni irs kimi qorunan obyektin adı** ______________________________

______________________________________________

**Növü** ______________________________________________

**Obyektiv forması** ______________________________________________

**Qeydiyyat tarixi və №-si** ______________________________________________

______________________________________________

**Müstəsna hüquq sahib(lər)i** ______________________________________________

______________________________________________

**Sifarişin tarixi və №-si** ______________________________________________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 201__-ci il __ ______ tarixli _____ nömrəli qərarı ilə verilən səlahiyyətlər əsasında Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi

**Müstəsna hüquq sahib(lər)i** ______________________________________________

*(hüquqi ünvanı, dövlət qeydiyyatına alındığı tarix, yerli cəmiyyətin (qrupun) adı,*

______________________________________________

*yerləşdiyi ərazi göstərilməlidir)*

______________________________________________

______________________________________________

**məxsus olan** ______________________________________________

*(qeyri-maddi mədəni irs nümunəsinin adı)*

rəsmi qeydiyyatdan keçirmiş və bu şəhadətnaməni vermişdir.

**SƏDR** ___________________________

**M. Y.**